**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**BAKALAVR PİLLƏSİ ÜÇÜN PROQRAM**

**İXTİSAS-050115 Coğrafiya müəllimliyi**

**FƏNN- İPFS-B02.1”TOPONİMİKA”**

**(II kurs)**

**Bakı Dövlət Universiteteinin rektoru Elçin Babayevin 29.03.2019-cu il tarixli 30 saylı əmri ilə fənn proqramı kimi təsdiq edilmişdir.**

**BAKI- 2021**

# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
# BAKI DÖVLƏT UNİVERSİTETİ

## BAKALAVR PİLLƏSİ ÜÇÜN PROQRAM
## İXTİSAS-050115 Coğrafiya müəllimliyi
## FƏNN- İPFS-B02.1”TOPONİMİKA”

**(II kurs)**

**BAKI- 2021**

# AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI

***BAKI DÖVLƏT UNIVERSITETI***

**Bakalavr pilləsi üçün**

# PROQRAM

**İXTISAS............. Coğrafiya muəllimliyi**

**Fənn............... “Toponimika”**

**TƏRTIB EDƏN:**

**dos. E.B. Nuriyev**

**Rəyçilər: prof. L.H.Quliyeva, prof. T.G.Həsənov**

**BAKI-2021**

# İZAHAT VƏRƏQİ

Toponimika fənni BDU-nun coğrafiya fakültəsində bakalavr-coğrafiya muəllimliyi ixtisası üzrə təhsil alan 11 kursun 111 semestrində 45 saat (30 saat mühazirə, 15 saat məşğələ) həcmində tədris olunur.

Fənnin öyrənilməsində məqsəd Toponimlər haqqında tələbələrə geniş məlumat vermək, Gənclərdə vətənpərvərlik, xalqına bağlılıq, onların dünyagörüşlərinin genişlənməsində və siyasi yetkinliyin formalaşmasında toponimikanın rolunu aşılamaqdır.

**Fənnin öyrənilməsində tələbə bilməlidir:**

Toponimlərə ad hansı səbəbdən və kimlər tərəfindən verilmişdir. Toponimlərin növlərin, Azərbaycanın paleotoponimlərini və s.

**Tələbə bacarmalıdır**

Coğrafiya, tarixi və dilçilik elmi vasitəsilə coğrafi adların yerini, mövqeyini, adverilmə səbəblərini, tarixi kökünü və dil mənsubiyyətini.

**<u>Tələbə yiyələnməlidir</u>**

- Toponimika elminin tədqiqat sahəsinə, toponimlərin məna və mənşəyinə və coğrafi adlara kimlər tərəfindən ad verilməsinə.

**Mövzular üzrə saatların bölgüsü**

| **№** | **Mövzular** | **Cəmi** | **O cümlədən** | |
|---|---|---|---|---|
| | | | **Müh.** | **Məş.** |
| **1** | Toponimikanın predmeti, məqsəd və vəzifələri | 2 | 2 | |
| **2** | Toponimikanın tədqiqat tarixi | 4 | 2 | 2 |
| **3** | Toponimik mənbələr | 3 | 2 | 1 |
| **4** | Azərbaycanın toponimik mənzərəsi | 2 | 2 | |
| **5** | Toponimikanın digər elmlərlə əlaqəsi (toponimika və coğrafiya) | 3 | 2 | 1 |
| **6** | Toponimika və tarix | 2 | 2 | |
| **7** | Toponimika və dilçilik | 2 | 2 | |
| **8** | Azərbaycan toponimlərinin öyrənilmə üsulları | 3 | 2 | 1 |
| **9** | Toponimikanın tədqiqat | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | prinsipləri | | | |
| **10** | Toponimlərin yaranmasında xalq coğrafiya terminlərinin rolu | 4 | 2 | 2 |
| **11** | Toponimik termin və anlayışlar, coğrafiya terminlərinin təsnifatı | 2 | 2 | |
| **12** | Toponimlərin nominasiyası və Azərbaycanın toponimik fon, toponimik təbəqələr və areallar | 4 | 2 | 2 |
| **13** | Azərbaycanın paleotoponimiyası | 4 | 2 | 2 |
| **14** | Bakı, Şamaxı, Qəbələ, Şəki, gəncə, Naxçıvan adının mənşəyi | 4 | 2 | 2 |
| **15** | Abşeron, Xəzər, Qafqaz, Muğan, Araz adının mənşəyi | 4 | 2 | 2 |
| | **Cəmi** | **45** | **30** | **15** |

## Mövzular və onların məzmunu.

**1.Toponimikanın predmeti, məqsəd və vəzifələri**. Çox qədim zamanlardan başlayaraq insanların məskən saldıqları

ərazilərə və onların yaxınlığında yerləşən obyektlərə müxtəlif adların verilməsi. Coğrafi obyekt. Coğrafi obyektin növləri. Təbii coğrafi obyektlər. Bu obyektlərin yer kürəsində baş verən tektonik hadisələr nəticəsində yaranması. Süni coğrafi obyektlər. Onların insan iradəsi və zəkası ilk meydana gəlməsi. Makro, mezo və mikro coğrafi obyektlər.

Coğrafi obyektlərə ad verildikdən sonra toponimlərin yaranması. Toponimikanın predmetinin üç növ obyekt adları təşkil etməsi: oykonim (yaşayış məntəqəsi adları; şəhər, qəsəbə, kənd, oba, binə, məhəllə, yurd və s.adları); **oronim** (dağ, qaya, yamac, zirvə, yayla, təpə, dərə, çökək, çuxur, çala və s.adları) **hidronim** (su obyekti adları: okean, dəniz, göl, çay, kanal, arx bulaq və s. adları).

**İxtisas kursunun məqsədi**: coğrafi adların növlərini, dil mənsubiyyətini, yaranma tarixini, düzgün yazılışını (unifikasiya və transkripsiyasını), tərkibindəki terminlərin izahını, mənası və mənşəyini aydınlaşdırmaqdır.

**Kursun vəzifələri:** Ölkə,region və ya respublika ərazisindəki coğrafi adların kütləvi surətdə toplanılması; yerli xalq coğrafiya terminlərinin qeydə alınması,

toponimlərin növlər üzrə tədqiq edilməsi; təhrifə məruz qalmış coğrafi adların və passiv formada fonda keçmiş toponimlərin aşkara çıxarılması; toponimlərin coğrafi, tarixi və dilçilik aspektlərində öyrənilməsi; coğrafi adların respublika və dünya ölkələri üzrə areallarının verilməsi; toponimik, fon, spektr və stratiqrafiyasının toponimik arealını; toponimikanın yaranması qanunauyğunluqlarının rayonlaşdırılma prinsiplərinin aparılması.

**2.Toponimikanin tədqiqat tarixi.** Azərbaycanın paleotoponimlərinin bəzilərinə ai, Yunan-Roma, Bizans və ərəb müəlliflərinin əsərlərində mülahizə və fikirlərə rast gəlinməsi (Strabon, Plini Sekund, Klavdi Ptolomey, Yuli Solin, Musa Kalankaytuklu və s.). Yaqut-Əl-Həməvinin (XIII əsr), Zəkəriyyə-əl-Qəzvinin (XIII əsr), Həmdullah Qəzvinin (XIV əsr) və Azərbaycan coğrafiyaşünası Əbdürrəşid Bakuvinin (XIV-XV əsr) əsərlərində coğrafi adlara dair toponimik məlumatın verilməsi.

XVIII-XIX əsrin məşhur Azərbaycan səyyahı H.Z.Şirvaninin (1780-1838), A.A.Bakıxanovun (1794-1848), M.H.Vəlilinin (Baharlının (1892-1937)) əsərlərində coğrafi adların mənşəyi və mənasına dair verilən izahatların

əhəmiyyəti. Respublikamızın görkəmli alimlərindən Z.M.Bünyadovun, B.Ə.Budaqovun, R.M.Yüzbaşovun, S.M.Mollazadənin, A.M.Qurbanovun, L.Q.Quliyevanın, T.M.Əhmədovun, Q.Ə.Qeybullayevin, N.G.Məmmədovun, E.B.Nuriyevin, və başqalarının Azərbaycan coğrafi adlarının öyrənilməsində misilsiz xidmətləri .

**3.Toponimik mənbələr.** Tarixi qaynaqlarda Azərbaycanin Zaqafqaziyanın ən qədim məmləkətlərindən olması.

Respublikamızın ərazisindəki coğrafi adların bəzilərinə eramızdan əvvəlki dövrə aid mənbələrdə rast gəlinməsi. Toponimik mənbələrin növləri:

**a)Yazılı mənbələr**: Şumer-Akkad, Assur və Urartu mixi yazılarında Azərbaycan ərazisində olan bir sıra coğrafi ad və etnotoponimlərin qeyd olunması. Orxon-Yenisey abidələri. Yunan və Roma mənbələri. Antik müəlliflərin əsərlərində qədim toponimlərə rast gəlinməsi. Miletli Hekatey ( e.ə.VI-V əsrlər) , Herodot (e.ə. V əsr), Strabon (e.ə.I əsr- e.I əsri), Klavdi Ptolomey ( e. II əsri), Plutarx (e.II əsr), Suriya, fars və ərəb qaynaqları qiymətli mənbə kimi. XIII əsr ərəb coğrafiyaşünası Yaqut-Əl-Həməvinin çoxcildlilik coğrafi adları lüğətində qeydə alınan Azərbaycan toponimləri.. XIV

əsr müəllifi H.Qəzvinin, XIV-XV əsr Azərbaycan şairi Bədr Şirvaninin əsərləri Azərbaycan toponimyasının öyrənilməsində əhəmiyyət kəsb etməsi

**b) Epiqrafik abidələr**. Toponimik mənbə kimi epiqrafik abidələrin mühüm rol oynaması. Qədim və orta əsr daş kitabələri.Urartu kitabələri ən qədim mənbə kimi.

**c) Xalq yaradıcıllığı** (folklor) nümunələri. Şifahi xalq ədəbiyyatında epik-lirik janrlı qəhrəmanlıq dastanlarında adı çəkilən toponimlər. Azərbaycan dastanlarının üç qrupa bölünməsi: **a) Qəhrəmalıq dastanları**. "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi" və s. b)Məhəbbət dastanları: "Leyli və Məcnun" , "Xosrov və Şirin", "Əsli və Kərəm", "Tahir və Zöhrə", "Valeh və Zərnigar" və s. **c)Ailə-məişət dastanları:** "Alıxan və Pəri", "Aşıq Qərib", "Novruz və Qəndab" və digər dastanlarda qeyd olunan coğrafi adlar.

**4.Azərbaycanın toponimik mənzərəsi.** Respublikamızın ümumi toponimik fonunu əks etdirən atlas və xəritələrdə toponimik strukturların əks olunması. Azərbaycan (türk) dilli adlar, Qafqazdilli toponimlər, İran spektrlərin yayıldığı ərazilər. Avar, ləzgi, saxurdilli spektrlərin coğrafiyası. Ərəb,

monqol və rus dillərinə mənsub toponimlərin yayılması və onların və müqayisəli təhlili.

**5. Toponimikanın digər elmlərlə əlaqəsi.** Ttoponimikanın müxtəlif elmlərlə əlaqəsinin olması. Toponimikanın coğrafiya, tarix, dilçilik, etnoqrafiya, arxeologiya və digər fənlərlə bağlılığı.

**1)Toponimika və coğrafiya.** a)hər bir toponim aid olduğu coğrafi obyektin konkret ünvanıdır; b)coğrafi adlar çox hallarda coğrafi obyektlərin xarakterik əlamətlərini, coğrafi xüsusiyyətlərini əks etdirir; c) toponimlərin tərkibində coğrafi terminlərin iştirakı; ç)toponimik landşaftın coğrafi landşaft üzərində yaranması; ğ) xəritə və atlaslarda coğrafi adların əhəmiyyət kəsb etməsi; e) toponimlərin mənşəyi haqda verilən izahatın məktəb coğrafiyasında əhəmiyyəti və s.

**6.Toponimika və tarix.** Toponimikanın tarix elmi ilə bağlılığını bu və ya digər coğrafi adın tarixi dövrlərdə meydana gəlməsində tarixi hadisələrin, xalq tayfa və nəsil adlarının toponimiyada əks olunması. Coğrafi adların müəyyən tarixi ictimai-iqtisadi formasiyaların məhsulu

olması. Xalqın tarixi, etnoqrafiyası, yaşadığı ərazinin təbii şəraiti ilə bağlılıgi.

**7.Toponimika və dilçilik.** Hər bir coğrafi adın dilin leksik vahidlərindən törəməsi, düzgün yazılışının dəqiqləşdirilməsi. Coğrafi adların dil qanunları əsasında yazılışının verilməsi. Toponimin mənşəyininin izahına görə toponimikanın dilçilik elmi ilə sıx bağlılığı. Toponimlərin xəritə və atlaslarda verilməsində dilçiliyin mühüm əhəmiyyət kəsb etməsi: yerli rəsmi, fonetik, transliterasiya, ənənəvi və tərcümə (kalka) üsullarından istifadə olunması.

**8.Azərbaycanın toponimləriının öyrənilmə üsulları**. Təbii sahələr üzrə, təbii zonalar üzrə, obyekt növləri üzrə, inzibati rayonlar üzrə, dillər üzrə, paleotoponimlər üzrə, şəhər adları üzrə, etnotoponimlər üzrə antroponimlər üzrə, patronimlər üzrə memorial coğrafi adlar üzrə, simvolik toponimlər üzrə, təhrif coğrafi adlar üzrə, təhrif tipləri üzrə və s.

**9.Toponimikanın tədqiqat prinsipləri**. Toponimikanın aşağıdakı tədqiqat prinsiplərinə daxildir. 1.Toponimin qədimliyinin nəzərə alınması, müxtəlif yazılış variantının qeyd olunması və düzgün yazılış formasının bərpa edilməsi. 2.Toponimin təhrifə məruz qalması səbəblərinin

müəyyənləşdirilməsi. 3.Toponimin spesifik və alınma olmasının aydınlaşdırılması. 4. Coğrafi adın müxtəlif yazılış variantlarının aşkara çıxarılmasi. 5. Toponimin aşqa adla əvəz olunması (dəyişdirilməsi) səbəbinin və tarixinin müəyyən olunması. 6.Obyektə ad vermə səbəbinin müəyyən olunması. 7.Coğrafi adın dil mənsubiyyəti və mənasının aydınlaşdırılması.8.Toponimin yayılma arealının müəyyənləşdirilməsi. 9.Coğrafi adın mənşə və mənasının izahının (etimologiyasının) verilməsi.

**10.Toponimlərin yaranmasında xalq coğrafiya terminlərinin rolu**. Yaşayış məntəqələrinə aid toponimik terminlər; relyef formalarına aid toponimik terminlər (müsbət relyef formalalarına və mənfi relyef formalarına dair terminlər və düzənlik terminləri); Hidronimlərə dair xalq coğrafiya terminləri a)axar sulara aid; b) durğun sulara dair; c)süni su yollarına aid terminlər; Ölkənin tarixi keçmişi ilə bağlı olan coğrafiya terminləri; Mövqe bildirən və təbii sərvətləri əks etdirən toponimik terminlər; Din və mövhumatla əlaqədar olaraq yaranmış xalq coğrafiya terminləri.

**11.Toponimik termin və anlayışlar**. Üç elmin qovuşağında yaranan müstəqil elm olan toponimikada zəngin termin və anlayışların olmas. Toponimika sahəsində işlədilən termin və anlayışların açıqlamalarının verilməsi: avtonim, aborigen, adonim, antonim, antroponim, areal, astronim, coğrafi obyekt, coğrafi landşaft, xoronim, etnonim, hidronim, nominasiya, kosmonim, oronim, fitonim, toponim, toponimik areala, toponimik fon, toponimik fond, toponimik formant, toponimik landşaft, toponimik spektr, toponimik stratiqrafiya, zoonim, zoonimiya və s.

**12.Toponimlərin nominasiyası**. 1.Spesifik toponimlər (süxurlarının rənginə, tərkibinə, ölçüsünə, səthinin bitkisiz olmasına, say tərkibinə, suyunun dadına, suyunun rejiminə, yerləşdiyi cəhətə görə və s.ad verilən). 2.Metoforik toponimlər ( bu və ya digər əşyaya oxşadılmasına, formasına, zahiri görünüşünə, insan və heyvanların bədən üzvlərinə oxşadılmasına görə adını alan), oronomik toponimlər, oykonomik toponimlər, hidronimik toponimlər, fitonimik toponimlər, zoonimik toponimlər, etnonimik toponimlər, patronimik toponimlər, antroponimik toponimlər, titul və

peşə bildirən toponimlər, sitayiş yerləri ilə əlaqədar yaranan toponimlər, qala adlarını əks etdirən coğrafi adlar və s.

**Azərbaycanın toponimik fonu.** Azərbaycan toponimiyasında Azərbaycan (türk) toponimik təbəqəsinin qədimliyi və tutduğu yer.

**Azərbaycanın toponimik arealları**. Respublikamızın ərazisində Azərbaycan mənşəli coğrafi adların toponimik fonu təşkil etməsi. Azərbaycanda toponimik areallarin mövcudlugu: 1. Ən qədim Azərbaycan (türk) arealı (3 minillik tarixi vardır). Bu areala respublikamızın bütün bölgələrində rast gəlinməsi və digər arealların Azərbaycan arealı fonunda yaranması. 2.Ərəb arealı (VII əsrdən sonra ). 3.Monqol arealı (XIII əsrdən sonra ). 4. Rus arealı ( XIX əsrin əvvəllərindən (1830-cu illərdən sonra) .

**13.Azərbaycanın paleotoponimiyası.** Azərbaycanin paleotoponimlər vətəni adlandırılması. Azərbaycanın ən qədim sakinləri sayılan türkdilli etnosların bu gunə qədər mühafizə edilməsinin xüsusi əhəmiyyətə malik olması. Paleotoponimlərin yaranması eramızdan əvvəlki VIII-VII əsrlərdən tutmuş Milad tarixinin XVI-XVII əsrləri əhatə etməsi.

**14. Azərbaycanın bəzi toponimlərinin mənşəyi.** Paleotoponimlərin etnik prosesləri özündə daha qabarıq və dəqiq əks etdirməsi. Azərbaycan xalqının formalaşmasında iştirak etmiş bir sıra türk dilli tayfaların və tayfa birləşmələrinin adlarını müasir dövrümüzə qədər qoruyub saxlayan qaynaqlar. Ən qədim toponimik adlara antik müəlliflərin coğrafiyaşünasların əsərlərində rast gəlinməsi. Paleotoponimlərin bir hissəsiQədim Alban turk tayfalarının və onların tərkibində iştirak edən digər tayfaların adlarının əks olunması.

**15**. Bakı, Şamaxı, Qəbələ, Şəki, Naxçıvan, Abşeron, Xəzər,Qafqaz, Muğan, Kür-Araz və s.toponimlərin mənşəyinə dair verilən məlumatlar.

## ƏDƏBIYYAT

**Əsas**

**1.**Axundov A.A.Naşava yoksa Naxçıvan. Bakı, "Elm və həyat", 1979, N.10

2. Budaqov B.Ə.Türk uluslarının yer yaddaşı. Bakı, 1994

3.Yüzbaşov R.M.Azərbaycanın coğrafiya terminləri. "Azərnəşr" Bakı, 1966

4. Qurbanov A.M.Azərbaycan onomologiyası. Bakı, 1986

5.Əhmədov T.M.Azərbaycan paleotoponimiyası. Bakı, 1985
6.Yüzbaşov R.M., Əliyev K.H., Sədiyev Ş.M. Azərbaycanın coğrafi adları, Bakı, 1972
7.Жучкевич Г.А.Общая топонимика. Минск, 1980
8.Məmmədov N.G. Toponimika (dərslik) BDU nəşriyyatı., 1999

**Əlavə**

1.ГейбуллайевГ.А.Топонимия Азербайджана, Баку, 1985
2.MollazadəS.M.Azərbaycan toponimiyası.Bakı, 1985
3.Мурзаев Э.М.Очерки топонимики.Москва, 1974
4.НиконовВ.А.Введение в топонимику Москва .1965.

5.ПопоА.И.Географические названия.Москва, 1965
6.Юзбашев Р.М.,Нуриев Э.Б.Топонимическая реконструкция ландшафтов Азербайджана.Москва,1979.